*Bu gün Azərbaycan dünya miqyasında sürətlə, uğurla inkişaf edən dövlətlərdən biridir. Ölkəmizin iqtisadi, hərbi potensialı güclənir. Xüsusilə qeyd etməliyəm ki, uğurlu iqtisadi siyasət nəticəsində Azərbaycan bu gün çox böyükmiqyaslı sosial layihələri icra edə bilir. Əgər bizim maliyyə imkanlarımız olmasaydı, maddi vəziyyətimiz pis olsaydı, biz bu layihələri, bu təşəbbüsləri irəli sürə bilməzdik.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

***Əhalinin həssas qruplarının, xüsusilə şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin siyasətinin ana xəttini təşkil edir. 2018-ci ilin aprel ayında Azərbaycan xalqı İlham Əliyevə bir daha etimad, inam göstərib onu prezident vəzifəsinə seçdi. Prezident seçildikdən sonra dövlət başçımızın birinci fərmanı şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı oldu. Ölkə Prezidenti kimi onun imzaladığı ilk fərmanın məhz şəhid ailələri ilə bağlı olması və həmin ailələrə növbəti ciddi dəstək tədbirini nəzərdə tutması da İlham Əliyevin onlara göstərdiyi diqqət və qayğını sübut edirdi. Təbii ki, bu, təsadüfi deyildi. Dövlət başçısı istənilən sahə üzrə fərman imzalaya bilərdi. İqtisadi sahə üzrə, xarici siyasət, sosial məsələlərlə bağlı. Həmin fərman əsasında 10 minə yaxın şəhid ailəsinə dövlət tərəfindən 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulurdu.***




# Şəhid ailələri və müharibə əlillərinə dövlət dəstəyi davam edir




Bu bir həqiqətdir ki, Azərbaycan bir çox ölkələrə bu sahədə nümunə göstərdi. Ödəmə prosesi başlayanda məlum oldu ki, vaxtilə müavinəti alan vətəndaşların aldıqları məbləğ bu gün verilən məbləğlə üst-üstə düşmür. Bunu nəzərə alaraq, Prezident tərəfindən yeni fərman imzalandı və 11 min manatı alacaq vətəndaşların sayı 2725 nəfər artırıldı. Həmçinin 2019-cu ilin yanvar ayında imzalanan fərmanla yeni, mühüm sosial müdafiə proqramı icra edildi: 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçuların, daxili işlər orqanları əməkdaşlarının – 12 min şəhidin 18 mindən çox vərəsəsi 11 min manat məbləğində birdəfəlik ödəmə ilə təmin olundu.

Son 4 ildə şəhid ailələri ilə çoxsaylı görüşlər bunu bir daha sübut edir ki, Prezidentin fəaliyyətində şəhid ailələrinin rifahının yüksəlməsi məsələsi prioritet təşkil edir. Dövlət başçımız İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 2019-cu il yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə görüşü zamanı dövlət başçımız vurğulamışdı: "Mən bir daha demək istəyirəm ki, bundan sonra da vətəndaşların sosial məsələləri daim diqqət mərkəzində olacaq. Şəhid ailələri üçün bundan sonra da evlər tikilib istifadəyə veriləcək. Bir neçə il ərzində bütün şəhid ailələri evlərlə, mənzillərlə təmin ediləcəklər. Bir dənə də şəhid ailəsi qalmayacaq ki, dövlət ona ev və ya mənzil verməsin".

Şanlı zəfər əldə etdiyimiz 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin göstərişi ilə şəhid ailələrinin və müharibə iştirakçıları ilə bağlı geniş istiqamətləri əhatə edən sosial dəstək proqramı icra olunur. Bu proqram üzrə mühüm sosial dəstək tədbirlərindən biri kimi şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı cənab Prezidentin sərəncamı ilə 2021-ci ildə 5 dəfə genişlənib. Həmin kateqoriyadan olanlara 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572 mənzil və fərdi ev verilibsə, 2021-ci ildə onlara 3 min mənzil və fərdi ev verilməsi proqramı uğurla icra olunub ki, bu da 2018-ci ilə nisbətən 5 dəfə çoxdur.

Bütün bunlarla yanaşı, qeyd edilməli məqamlardan biri də Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli sərəncamıdır. Sərəncama uyğun olaraq, 2021–2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. Amma bu ilin əvvəlindən 200, postmüharibə dövründə 3200, ümumilikdə ötən dövrdə 12 min 500-dən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib. Vətən müharibəsi şəhidlərinin ailələri və müharibə əlilləri qeydiyyata alındıqdan qısa zaman sonra artıq onların mənzillə, eləcə də, müharibə əlilərinin avtomobillə təminatı onlara xüsusi qayğının daha bir təzahürüdür. Dövlət başçısının tapşırığı ilə müharibə əlillərinin avtomobillə təminatı tədbirləri də uğurla davam edir. Son 4 ildə də 1450-dək, ümumilikdə, ötən dövrdə 7400 müharibə əlilinə avtomobil verilib. Dövlət başçısının "Sosial müavinətlərin məbləğinin artırılması haqqında", "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" fərmanları bu kateqoriyadan olan insanların rifahının yaxşılaşdırılmasının və onlara göstərilən dəstək və davamlı qayğının bariz nümunəsidir.

Qazi və şəhid ailələri haqqında danışarkən, əlbəttə ki, Prezidentin 8 dekabr 2020-ci il tarixində "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında" Fərmanı ilə "YAŞAT" Fondunun təsis edilməsini də qeyd etməliyik. Ötən müddətdə "YAŞAT" Fonduna toplanan vəsait hesabına şəhid ailəsi üzvlərinin və yaralıların məişət şəraiti yaxşılaşdırılıb, təhsil haqqı ödənib, istehlak kreditləri və tibb xidmətlərinin ödənilməsinə vəsait ayrılıb. Eyni zamanda, Vətən müharibəsi qaziləri müayinə, müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilib.

Dövlət 44 günlük Vətən müharibəsində keçdikləri şücaətlərlə zəngin şərəfli döyüş yolunda əzalarını itirən qazilərin yenidən aktiv həyata dönüşü üçün hər şeyi edir. Prezident İlham Əliyevin tapşırığına əsasən, 2020-ci ilin dekabr ayından müharibə əlillərinin yüksək texnologiyalı müasir protezlərlə təminatına başlanıb. Artıq 270 nəfər müharibə əlili yüksək texnologiyalı 290 ədəd müasir – 4-cü nəsil protezlə təmin edilib. Onlardan 188 nəfəri Vətən müharibəsi qazisi, 82 nəfəri isə I Qarabağ müharibəsi və Vətən müharibəsinə qədərki dövrdə hərbi səbəblərlə əlaqədar əliliyi olan şəxslərdir. "Genium" tipli 4-cü nəsil protezlər aktivliyi və funksionallığı ilə qazilərimizin sərbəst və inamlı şəkildə hərəkət etmələrinə, hətta istədikləri zaman futbol oynaya bilmələrinə belə imkan verir. Onu da qeyd edək ki, əliliyi olan şəxslərə arzu etdikləri tarixdə reabilitasiya xidmətlərindən yararlanmaq üçün qeydiyyata alınmaq imkanı yaradılıb. Reabilitasiya xidmətləri üçün elektron rezervasiya sisteminin tətbiqinə cari ilin fevral ayından başlanıb və 2000-dən çox əlilliyi olan şəxs bu sistemdən yararlanıb.

Qeyd edək ki, Prezident İlham Əliyev 2022-ci il 11 aprel tarixli fərmanla "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə Qaydası"nı təsdiq edib. Qayda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sifarişi ilə Bakı şəhəri Sabunçu rayonunun Ramana qəsəbəsində, Qaradağ rayonunun Ümid qəsəbəsində, Binəqədi rayonunun Xocəsən qəsəbəsində, Abşeron, Lənkəran və Samux rayonlarında inşa edilmiş çoxmənzilli binalarda, həmçinin Bakı şəhəri Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində və Abşeron rayonunda inşası davam etdirilən çoxmənzilli binalarda yerləşən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə qaydasını müəyyən edir. Qeyd edilən mənzillərin satışından əldə olunan vəsait digər bölgələr üzrə şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə təminatına yönəldiləcək, onların mənzillə təminatı proqramı daha da genişləndiriləcək. Mənzillərin hərrac vasitəsilə satışı qaydasını isə Nazirlər Kabineti dövlət başçısı ilə razılaşdırmaqla üç ay müddətində təsdiq edəcək.

Xatırladaq ki, Prezidentin 25 iyun 2021-ci il tarixli fərmanı ilə yaradılan vahid əlaqələndirmə mərkəzlərində də ötən dövrdə şəhid ailələri üzvləri, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçular və müharibə əlillərindən ibarət 25620 şəxsə xidmətlər göstərilib. 142 – Çağrı mərkəzi vasitəsilə isə həmin mərkəzlərə aid məsələlər üzrə 77 min 277 vətəndaş müraciəti cavablandırılıb. Hazırda Bakı şəhərində və Abşeron rayonundakı DOST mərkəzlərində, Gəncə şəhərində, Masallı və Ucar rayonlarında regional vahid əlaqələndirmə mərkəzləri fəaliyyət göstərir. Həmin mərkəzlərdə 6-sı mərkəzi və 33-ü yerli icra hakimiyyəti olmaqla 39 qurum üzrə 26 istiqamətdə (əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə və s.) xidmətlər "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş məmnunluğu prinsipi əsasında təqdim edilir.

Ötən həftə özünüməşğulluq proqramı çərçivəsində bu ilin əvvəlindən başlanılan prosesin davamı kimi daha 300-ə yaxın şəhid ailəsi və qaziyə mal və materiallar formasında aktivlər təqdim edilib. Qeyd edək ki, verilmiş aktivlər hesabına onlar kiçik təsərrüfat və müəssisələrini yaradıblar. Proqrama cəlb olunan şəxslər üçün əvvəlcə təlimlər təşkil olunur, onlara kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlar öyrədilir. Təlimləri uğurla başa vuran şəxslər seçdikləri özünüməşğulluq istiqaməti üzrə biznes planlarına uyğun aktivlərlə təmin olunublar.

Xatırladaq ki, "Məşğulluq marafonu" çərçivəsində də şəhid ailəsi üzvlərinin və Vətən müharibəsində yaralanmış qazilərin məşğulluğunun təminatı işləri davam edir. Marafona qoşulan işəgötürənlərin sayı artıq 627-yə çatıb. Həmin işəgötürənlərdən 332-si dövlət, 295-i isə özəl sektora aiddir. İşəgötürənlər tərəfindən marafona təqdim edilən vakansiyaların sayı isə 4363-ə çatıb. Təqdim edilən vakansiyalar üzrə artıq 1959 nəfər işlə təmin edilib. Onlardan 1599 nəfəri qazi, 360 nəfəri isə şəhid ailəsi üzvüdür.

Şəhid ailələrinin sosial müdafiəsi istiqamətində müvafiq işlər aparılır. Belə ki, onların ailələri ilə görüşlər keçirilir, birdəfəlik sığorta ödənişi və maddi yardım verilir, Prezident təqaüdü və pensiya ilə təmin olunurlar. Onlara daim diqqət və qayğı ilə əhatə olunacaqları, bu sahədə aparılan işlərin həmişə diqqətdə saxlanacağı bildirilib.

Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəməti, qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu gün şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı nümunəvi xarakter daşıyır. Şəhid ailələrinin, müharibə əlillərinin və veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da təqdirəlayiqdir.

Həm də bu istiqamətdə həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakter daşıyır. Belə ki, dövlət başçısının müvafiq fərman və sərəncamları əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə müstəsna töhfələr verir. Əlil və şəhid ailələrinin mənzil və məişət şəraitinin yaxşılaşdırılması Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən dövlət siyasətinin mühüm prioritetlərindən biridir.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***